# 1

# PELE OLMAQ

1940-cı il oktyabrın 23-də Selest Arantes sağlam bir oğlan uşağı dünyaya gətirdi. Onun əri Dondinyo yeni doğulmuş oğlunun üstünə əyilərək uşağın budlarını sıxdı.
– “Odan yaxşı futbolçu çıxacaq” – deyə öyündü. – “Əsl futbolçu ayaqlarıdır».

Selest körpəni sinəsinə möhkəm sıxaraq dedi: “İmkan verməərəm! Bir ailədə bir futbolçu bəsdir!”

Gənc valideynlər oğullarına Edson Arantis du Nascimentu adını verdilər. Lakin dünya onu başqa adla tanıyacaqdı: Pele adı ilə.

Pelenin atası  Braziliyanın "Vasko da Qama" futbol komandasında oynayırdı. Deyilənə görə, Pele üç və ya dörd yaşında olanda Dondinyo onu özü ilə məşqlərə aparırdı. Orada Pelenin ən çox bir oyunçudan – qapıçı Biledən xoşu gəlirdi.

Pele qapıçını təqlid edir guya sağdan, soldan və mərkəzdən gələn bütün zərbələrin qabağını alırdı. "Əhsən, Bile» – o qışqırırdı. «Topu yaxşı saxladın!" deyirdi.



Ancaq tədricən Pele onun adını "Bile" kimi tələffüz etməyi tərgitdi və "Pile" deməyə başladı.

O, ailəsinə “Böyüyəndə Pile kimi qapıçı olmaq istəyirəm” deyirdi.

Ailə Braziliyanın San-Paulo şəhərindəki Bauru bölgəsinə köçəndə ad yenidən dəyişdi: “Pilée artıq “Pele” olmuşdu. Pele haqqında o qədər çox danışırdı ki, məktəbdəki uşaqlar onu lağa qoymağa, hirsləndirmək üçün ona Pele deməyə başladılar. Pele çox kədərlənirdi.

“Mənasız addır” – deyə düşündü. “Edson daha ciddi və sanballı səslənir!”

Digər uşaqlar Pele adından narahat olduğunu biləndən sonra ona daha tez-tez bu adla çağırmağa başladılar! Pelenin yeni adı ilə barışmaqdan savayı çarəsi yox idi.



Pele uşaqlığında bir çox çətinliklərə dözməli oldu.

Ailəsi çox kasıb idi. Onun böyüdüyü ev taxtadan tikilmişdi və damı damırdı. Selest həmişə Dondinyodan futbolçu olmaq xəyalının daşını atıb, daha yaxşı maaş almaq üçün əməlli-başlı bir iş tapmağını istəyirdi.

Pele ailəsinə kömək etmək üçün əlindən gələni etməyə çalışırdı. Yeddi yaşından bir az pul qazanmaq üçün insanların ayaqqabılarını parıldadırdı.

Amma onun ən çox istədiyi şey futbol oynamaq idi. Onun əsl futbol topu almağa imkanı yox idi, buna görə də top əvəzinə bəzən qreyfrut və ya köhnə parça ilə doldurulmuş corab ilə oynayırdı.

Dairəvi olan hər şeylə oynaya bilərdi!

Pele və dostları futbol matçlarını küçədə keçirir, dalanın başından qapı kimi istifadə edirdilər. Yol çala-çuxurlarla dolu idi və tarazlığı saxlamaq çox çətin idi, amma Pele bunu vecinə almırdı. Onun üçün ən vacib şey futbol oynamaq idi.

Dondinyo da bacarıqlarını inkişaf etdirməkdə ona kömək edirdi: “Əgər yaxşı oyunçu olmaq istəyirsənsə” – deyirdi, – “hər iki ayağından bərabər şəkildə istifadə etməyi öyrənməlisən”.



Onlar saatlarla hər iki ayaqla məşq edirdilər. Sonra başla zərbələri məşq etməyə keçirdilər. – “Unutma” – Dondinyo deyirdi, – “alının ortasından, gözlər



açıq, ağız bağlı. Bax belə!"

Selest hirslənib deyirdi: "Acından öləndə üstümə gəlməyin!" – O düşünürdü ki, Pele ya həkim, ya da hüquqşünas olmalı idi – daha çox pul qazana biləcəyi bir peçə seçməliydi. "Narahat olma, Selest" – deyə Dondinyo gülərək əlavə edirdi: – "Əgər o, hər iki ayağından eyni şəkildə istifadə etməyi öyrənməsə, narahat olmağa heç bir səbəb yoxdur!"

Həlledici an 1950-ci ildə gəldi. O zaman Pele cəmi on yaşında idi. Braziliya milli futbol komandası Dünya Kubokunda oynayırdı və bu çempionat Braziliyada